*Qədim, doğma Qobustanım*

# QOBUSTAN

*Qobustan Rayon İcra Hakimiyyətinin orqanı*

Qəzet 1992-ci ildən çıxır * **İCTİMAİ-SİYASİ QƏZET** * №012 (200) dekabr 2020-ci il

# Vətən müharibəsində Qələbəyə həsr olunmuş 10 dekabr tarixində keçirilmiş Zəfər paradı

## *Azərbaycan xalqı milli tarixinin ən möhtəşəm səhifəsini yaşayır*






- Qələbə Paradın möhtəşəmliyi. "Dəmir yumruq" əməliyyatında - Azərbaycanın Vətən müharibəsində möhtəşəm Qələbəyə həsr olunmuş Zəfər Paradında 3000 nəfərdən artıq şəxsi heyətin, 150-dək hərbi texnikanın, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnikanın, raket və artilleriya qurğularının, hava hücumundan müdafiə sistemlərinin, eləcə də hərbi gəmi və katerlərin nümayişi oldu. Paradda, həmçinin Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun darmadağın etdiyi düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qismi də nümayiş etdirildi.

- Qardaş Türkiyənin dəstəyi. Vətən müharibəsinin ilk günlərindən, ilk saatlarından etibarən Azərbaycan xalqı Türkiyənin dəstəyini hiss etdi. Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan ilk saatlardan Azərbaycanın haqq işinə öz dəstəyini verdi. Onun açıq, birmənalı və sərt açıqlamaları Azərbaycan xalqını çox sevindirdi. Türkiyənin Azərbaycana verdiyi siyasi və mənəvi dəstək hər bir Azərbaycan vətəndaşını qürurlandırır, sevindirir.

- 44 günlük Qələbə müharibəsi. Azərbaycan Ermənistanı məğlub etdi, işğala son qoydu. 44 günün hər günü şanlı tarixdir. Hər gün Azərbaycan Ordusu irəli gedirdi, hər gün yeni şəhərlər, kəndlər, qəsəbələr, yüksəkliklər azad edilirdi. Azərbaycan əsgəri, Azərbaycan zabiti bir amalla vuruşurdu ki, bu işğala son qoyulsun, bu haqsızlığa son qoyulsun, ədalət zəfər çalsın, tarixi ədalət zəfər çalsın.

- Dünya tarixi həqiqətləri bilməlidir. Azərbaycan əraziləri 30 ilə yaxın işğal altında idi. 1990-cı illərin əvvəllərində Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti torpaqlarımızın işğal altına düşməsinə səbəb olmuşdu. Ermənistanın təcavüzkar siyasəti hələ 1980-ci illərin sonlarından başlamışdı. O vaxt indiki Ermənistan Respublikasında yaşamış 100 minlərlə azərbaycanlı öz dədə-baba torpaqlarından didərgin salındı. Zəngəzur, Göyçə, İrəvan mahalı Azərbaycanın tarixi torpaqlarıdır.

- Hərbi uğurumuzu bərkidən amil uzun illər ərzində davam etdiyimiz diplomatik mübarizəmizdir. Uzun illər ərzində bütün beynəlxalq tədbirlərdə və platformalarda Azərbaycan həqiqətlərini çatdırmaq istiqamətində tərəfimizdən böyük işlər aparılmışdır və bu işin səmərəsi oldu. Bütün aparıcı beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıdı və bunu dəstəklədi. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, BMT Baş Assambleyasının qətnamələri, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, Avropa Parlamenti və digər təşkilatlar Azərbaycanın haqq işini dəstəklədi. Beləliklə, münaqişənin həlli üçün hüquqi zəmin yaradılmışdır. Məqsədyönlü səylər nəticəsində münaqişə ilə bağlı, Qarabağın tarixi ilə bağlı dünya ictimaiyyətinə dolğun məlumat çatdırıldı, Ermənistanın yalançı təbliğatına son qoyuldu və bütün dünya gördü ki, Qarabağ əzəli tarixi torpağımızdır.




- Münaqişənin hərbi yollarla həll edilməsi qaçılmaz idi. Son illərdə beynəlxalq hüquq və prinsiplər kobudcasına pozulur. Bəzi ölkələr güc tətbiq edərək öz məqsədlərinə çatırlar, beynəlxalq hüquq kağızda qalır, BMT Təhlükəsizlik Şurasının qətnamələri kağızda qalır. Belə olan halda Azərbaycan xalqı öz problemini özü həll etmək məcburiyyətində oldu. Son illər ərzində, xüsusilə son 2 il ərzində Ermənistanın təxribatçı addımları, bəyanatları, hərəkətləri müharibəni qaçılmaz etmişdi.

- Azərbaycan səbirli və qəhrəman xalqdır. Azərbaycan xalqı Qələbəni 30 ilə yaxın müddət ərzində gözləyirdi, 30 ilə yaxın müddət ərzində Ali Baş Komandanın əmrini gözləyirdi. Müharibə dövründə xalq öz dəmir yumruğunu, birliyini və gücünü nümayiş etdirə bildi. Ermənistan ordusu demək olar ki, yoxdur, məhv edilib.

- Azərbaycanın tarixində yeni səhifə başlanır. Ölkəmiz üçün yeni dövr başlayır - quruculuq dövrü. Mənfur düşmən işğal edilmiş bütün torpaqları yerlə-yeksan edib. Bütün binalar, bütün tarixi abidələr, məscidlər, qəbirlər, məzarlıqlar mənfur düşmən tərəfindən dağıdılıb. Onlar hamısı bərpa ediləcək.

***(Davamı səh.2-də)***

# Vətən müharibəsində Qələbəyə həsr olunmuş 10 dekabr tarixində keçirilmiş Zəfər paradı

## *Azərbaycan xalqı milli tarixinin ən möhtəşəm səhifəsini yaşayır*

*(Əvvəli səh.1-də)*

- Hər bir Azərbaycanlı hərbiçi qəhrəmandır. Azərbaycan Ordusunda bir dənə də fərari olmayıb. Yaralı əsgər və zabitlərimiz hərbi hospitallarda, xəstəxanalarda həkimlərdən xahiş edirdilər ki, bizi tezliklə sağaldın, biz qayıdaq döyüş meydanına, biz öz missiyamızı başa vurmalıyıq. Azərbaycan xalqı öz böyüklüyünü göstərdi, yüksək mənəvi ruhunu göstərdi. Bu Qələbənin səbəbkarı da Azərbaycan xalqıdır. Biz birlik, iradə, əzmkarlıq, milli ruh göstərərək tarixi missiyamızı yerinə yetirdik.

- Azərbaycanın quruculuq missiyası başlanır. Bundan sonra Azərbaycan yalnız inkişaf edəcək. Azad edilmiş torpaqlara bundan sonra həyat qayıdacaq. Hər bir vətəndaşımız bu məsələlərdə fəal olmalıdır.

Ermənistanın qaçılmaz məğlubiyyəti

- Erməni miflərinə son qoyuldu. Azərbaycan Ordusu öz qəhrəmanlığı və peşəkarlığı ilə təkcə Ermənistanın silahlı qüvvələrini məhv etməyib, o, Erməni mifini də məhv etdi. Azərbaycan oğulları Ermənistanı döyüş meydanında məhv etdi. Ermənilərin uzun illər yaratdıqları mifi darmadağın oldu. Onlar öz ordusu haqqında yalan məlumat ötürərək mif yaratmışdılar, guya Ermənistan ordusu yenilməz ordudur. Cəmi 44 gün ərzində Ermənistan ordusu məhv edildi, hərbi texnikası məhv edildi, canlı qüvvəsi məhv edildi və Azərbaycan öz gücünü, öz qüdrətini göstərdi.




- Kapitulyasiya aktı məğlubiyyətin sübutudur. Noyabrın 10-da Ermənistan məcbur olub kapitulyasiya aktına imza atıb. Bu kapitulyasiya aktına görə, bir güllə atmadan Kəlbəcər, Laçın və Ağdam rayonları Azərbaycana qaytarıldı, Azərbaycan bayrağı orada qaldırıldı. Bu, onu göstərir ki, Azərbaycan müharibəni həm döyüş meydanında, həm siyasi müstəvidə qazanıb.

- Rəsmi İrəvan hərbi cinayətkardır. Mənfur düşmən döyüş meydanında məğlubiyyətə uğrayarkən mülki əhaliyə qarşı hərbi cinayətlər törədib, Azərbaycanın şəhərləri ballistik raketlərlə, fosforlu bombalarla, kasetli bombalarla atəşə tutub. Bu namərd atəş nəticəsində 100-ə yaxın mülki vətəndaş, onların arasında uşaqlar, qadınlar həlak olublar. Dörd yüzdən çox mülki vətəndaş yaralanıb, beş mindən çox ev dağıdılıb, ya da ki, o evlərə ziyan vurulub.

- Ermənistan ordusu eyni zamanda mənəvi məğlubiyyətə uğrayıb. Müharibə dövründə Ermənistan ordusunda 10 mindən çox fərari olub. Təcavüzkar Erməni əsgəri haqq uğrunda savaşan Azərbaycan əsgəri qarşısında dura bilmədi.



# Vətən Müharibəsi Qəhrəmanı - Elyar Vəliyev

***27 sentyabr 2020-ci il Ermənistan tərəfindən atəşkəsin pozularaq Azərbaycanın torpaqlarına qarşı törədilən növbəti təxribat ordumuzun əks-hücum əməliyyatlarının başlanmasının işarəsi oldu.***

Ölkəmizdə həm rəsmi səviyyədə, həm də xalqda artan torpaqların qaytarılması arzusu da bu işarənin xəbərçisi oldu.

Bu tarixi qələbəmizdə əsl qəhrəmanlıq göstərmiş saysız Azərbaycan oğullarından biri də gizir Vəliyev Elyar Arif oğludur. Elyar 17 oktyabr 1991-ci ildə rayonumuzun Sədəf kəndində dünyaya göz açmışdır. İdman cüssəli bu gənc kənddəki 9 illik məktəbi bitirmişdir. Nümunəvi davranışına görə müəllimlərinin və kənd sakinlərinin hələ gənc yaşlarından hörmətini qazanmışdır. İdmana - əsasən qaydasız döyüşə çox maraq göstərirdi. Elə bil ürəyinə dammışdı ki, bu döyüş - mənfur düşmənin üzərində əlbəyaxa zamanı ona qələbə qazandıracaqmış. Vətənpərvər hissi ilə yaşayan bu gənc həqiqi hərbi xidmətə çağrılması gününü səbirsizliklə gözləyir. Doğma Qarabağımızın işğaldan azad olunmasına can atır. Elə bil ki, bu misralar Elyar üçün yazılıb:

***Böyüyəndə mən bir əsgər olaram***
***Ana Vətən, tabehində duraram***
***Düşmən ermənini qana bularam,***
***Tez olginən qoynunda böyüt məni***
***Silah tutub müdafiə edim səni***

Elyar Vəliyev 2009-cu ildə həqiqi hərbi xidmətə "N" saylı xüsusi təyinatlı hissədə qulluq edir. Bu gənci xüsusi təyinat üzrə kursa göndərirlər. Valideynlərinin xeyir-duasını alan Elyar müddətli müqavilə əsasında həmin hissədə qulluq etməyə başlayır. Hərbi hissə komandiri tərəfindən "Fəxri fərman"lara layiq görülür. Tez-tez valideynlərinə onun barəsində təşəkkür məktubları gəlir.

Ailənin ilk övladı -Elyarın 2012-ci ildə toyu olur. Toyda qohumları ilə yanaşı hərbi yoldaşları da iştirak edir.

Hamıya məlumdur ki, mənfur ermənilər 27 sentyabr 2020-ci il tarixində bizə qarşı ədalətsiz müharibəyə başladılar. Elyar Vəliyevdə hərbçi yoldaşları ilə döyüşə yollandı. Fizulinin, Cəbrayılın, Hadrutun, Xocəvəndin, Qubadlının alınmasında böyük qəhrəmanlıq göstərdi. Cəbrayıl ərazisində "UAZ" markalı maşını məhv etdi. Hansı ki, onun içərisində yüksək rütbəli erməni zabitləri olub. Hadrut istiqamətində ermənilərin Hava Hücumundan Müdafiə Radiolakasiyasını partladıb.

Yenə həmin istiqamətində hərəkət edən, içində 30-35 nəfər erməni əsgəri olan "KAMAZ" markalı maşını və iki ədəd zirehli texnikanı yoldaşları- Sübhan, Camal, Şəhriyar, Kərəm və başqaları ilə darmadağın ediblər. Elyar tibbi bacarıqlara da malik idi. O yaralı yoldaşlarına döyüş vaxtı ilkin tibbi yardım göstərirdi. Həmin yaralılardan bir neçəsi hal-hazırda sağ-salamatdır. Düşmənin qərargahına girən gizir Elyar orda olan zabit heyyətini, rəis başda olmaqla məhv edib. "Qırmızı bazar" adlanan yerdə qızğın döyüşlər olub. 1000 nəfərdən çox olan ermənIyə qarşı 30 nəfərlə müqavimət göstəriblər. Bu döyüş 5 saata yaxın davam edib. Hərbi sursatları qurtarmaq üzrə olur. Üstündə olan 5 ədəd əl qumbarasını düşmənə atır. Və xeyli sayda düşməni məhv edir. Hətta şəhid olmuş yoldaşının əl qumbaralarından istifadə edir. Sonra əlbəyaxa döyüş başlayır. Lakin bu döyüşdə o, 20 oktyabr 2020-ci il tarixində qəhrəmancasına şəhid olur. Son anda "Allahu Əkbər" kəliməsini dilə gətirir. Bu cəsur döyüşçünün oktyabrın 17-də ad günü idi. Atası Arif axırıncı dəfə oktyabrın 18-də onunla telefonla danışır və ad gününü təbrik edir. Elyar ondan qardaşı Elçinin harada döyüşdüyünü soruşur. Ata Elçinin Zəngilan istiqamətində olduğunu bildirir. Bir qədər sonra Elçin Elyarla danışa bilir. Arif oğlanları ilə birgə telefon əlaqəsi yaratmaq istəsə də buna nail ola bilmir. Elyardan xəbər gəlmir...

E. Vəliyev doğulduğu kənd qəbirstanlığında dəfn olundu. Dəfndə RİH Başçısı Adil Məmmədov başda olmaqla Qobustan əhli ilə yanaşı bölgələrimizdəndə xeyli sayda insanlar iştirak edirdilər. Üçrəngli müqəddəs bayrağımız şəhidin atasına təqdim olundu.

E. Vəliyev 4 oğul və bir qız atası idi. Sonbeşiklər üçəmdirlər. Aprel döyüşlərində də bu gənc gizir fədakarlıq göstərmişdir. Buna görə də "Döyüşdə fərqlənmə medalına layiq görülmüşdür." Elyarın bu müharibədə də göstərdiyi qəhrəmanlıq dövlətimiz tərəfindən də yüksək qiymətləndirilmişdir.

Ali Baş Komandanımız İlham Əliyev cənabının 9 dekabr 2020-ci il sərəncamına əsasən Elyar Arif oğlu Vəliyevə "Vətən Müharibəsi Qəhrəmanı" adı verilmiş ,19 dekabr 2020-ci il tarixli sərəncama əsasən "Vətən uğrunda" və 24 dekabr 2020-ci il sərəncamına əsasən "Cəbrayılın azad olunmasına görə " medallarına layiq görülmüşdür.

Beləliklə, döyüç meydanında şanlı tarix yazan Azərbaycan ordusu Ali Baş Komandanımızın rəhbərliyi sayəsində ermənilərin 30 il ərzində qurduğu istehkamları 44 gün ərzində darmadağın edərək, uğurlu əks -həmlə əməliyyatları nəticəsində 8 Noyabr - Zəfər Gününü müəyyənləşdirdi.

Şəhidimiz Elyarın atası Arif bəy bildirdi ki, oğlumun bir gənc kimi formalaşmasında və tərbiyəsində biz -valideynlərin böyük rolu olmuşdur.Lakin Elyarın bir peşəkar hərbiçi kimi yetişməsində general leytenant Hikmət Mirzəyevin rolu əvəzolunmazdır.

Allah bütün şəhidlərimizə rəhmət etsin.

***Ruslan Şahbazov***
***Məhəmməd Bayramov***

# Qobustan rayonunda Ümummilli lider Heydər Əliyevin anım günü qeyd olunub





***Qobustan rayonunda müasir Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın Ümummilli lideri Heydər Əliyevin vəfatının 17-ci ildönümü ilə bağlı anım mərasimi keçirilib.***

Mərasim iştirakçıları ölkəmizdə tətbiq olunan karantin qaydalarına əməl etməklə Ümummilli Liderin abidəsini ziyarət edərək xalqın böyük xilaskarının xatirəsinə ehtiramlarını bildirib, abidənin önünə tər çiçək dəstələri düzüblər.







# Mayor Mirdamət Bağıyev




***O, sözün əsl mənasında canlı əfsanə- xalq qəhrəmanıdır. Tarix belə qəhrəmanları yetirmək üçün sanki xəsislik edir. Döyüş tarixinə nəzər salsaq, haqqında söz açacağımız qəhrəman, Vətən oğlunun aprel döyüşləri zamanı nümayiş etdirdiyi igidlik təkrarolunmazdır. ..Təbii ki, zaman gələcəkdə cəmiyyətə yeni-yeni Mirdamətlər yetirəcək. Ancaq Mirdamətin göstərdiyi qəhrəmanlıq elə həmin o tarixin təməli olaraq daima xatırlanacaq.***

Bağıyev Mirdamət Səristan oğlu 28 noyabr 1986-cı ildə rayonumuzun Poladlı kəndində anadan olub. O, Mahir Kərimov adına Poladlı kənd orta məktəbi bitirərək, Heydər Əliyev adına Ali Hərbi Məktəbə qəbul olur. 2008-ci ildə ali hərbi təhsilini başa vuraraq, Müdafiə Nazirliyinin Təlim Tədris Mərkəzində dinləyici olur.

Sonra, 2009-cu ildə "N" saylı hərbi hissədə taqım komandiri kimi fəaliyyətə başlayıb. Fəal işinə görə həmişə irəli çəkilib. Mayor Mirdamət Bağıyev hal-hazırda hərbi hissə komandiridir.

Məlum 2016-cı il Aprel döyüşlərində gənc mayor qəhrəmanlıqlara yol açır. Bu döyüşdə sol qolundan və kürəyindən yaralanır. Bir nəfər MAXE-dən dəsmalını alıb birlikdə yarasını bağlayır. Bu da qanaxmanın qarşısını alır. "Sanitarka" dan xəlvəti ilkin tibbi yardım göstərməsini xahiş edir.

Beləliklə, döyüşü davam etdirir. Bu barədə əsgərlərə heç nə bildirmir. Çünki onlar ruhdan düşə bilərdilər.

Madagiz istiqamətində qızğın döyüşlər gedirdi. Bu döyüşdə M. Bağıyev sərrast atəşlə düşmənin 7 tankını, 1 ədəd BMP-ni, 2 təkərli texnikasını və içərisində xeyli sayda düşmən əsgəri olan 3 ədəd "KAMAZ"-ı məhv edib. Döyüşdə fəal iştirakına görə Ali Baş Komandan İlham Əliyevin sərəncamına əsasən "Vətənə xidmətə görə " III dərəcəli ordenə layiq görülüb.

27 sentyabr 2020-ci ildə ermənilərin bizə qarşı apardığı ədalətsiz müharibədə mayor Mirdamət Bağıyev və onun tabeliyində olan heyət daha yüksək nəticələr



göstərmişdir. Döyüşləri Tərtər, Suqovuşan, Talış, Naftalan istiqamətində getmişdir. Bu döyüşlərdə idarə etdiyi bölmə ilə düşmənin 32 tankını, 6 BMP-ni, içi dolu düşmən əsgəri ola 4 ədəd "KAMAZ" markalı və bir ədəd içərisində düşmən zabitləri olan "Cip" markalı maşınlarını məhv etmişlər. Şəxsən gənc mayor 3 ədəd tankı zərər vurmadan hərbi qənimət kimi ələ keçirmişdir.

Müasir silahlarla saysız-hesabsız düşmənin canlı qüvvəsini darmadağın etmişdir.

Göstərdiyibu misilsiz qəhrəmanlıqlara görə Mayor Mirdamət Bağıyev Ali Baş Komandan İlham Əliyev cənabının 9 dekabr 2020-ci il sərəncamına əsasən "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülmüşdür.

Gənc mayor 17 ilə yaxındır ki, bir peşəkar hərbçi kimi Vətənə qulluq edir.

Ailəlidir. 2 övladı var.

Biz də həmyerlimiz, gənc mayor, Mirdamət Bağıyevə bu nəcib işdə daha yüksək uğurlar arzulayırıq.

Allah sizin kimi "canlı əfsanələri" qorusun.

***Günay Bayramlı***
***R. Babaşov adına tam orta məktəbin müəllimi***

# Minsk qrupu münaqişənin həllində heç bir rol oynamayıb

***ATƏT-in Minsk qrupu həmsərdlərinin sonuncu dəfə Azərbaycana səfərindən sonra ötən bir il ərzində bölgə və dünyadakı vəziyyət dəyişmişdir.***

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli regionda vəziyyəti dəyişdirmişdir.

Status-kvo güc yolu ilə, Azərbaycan hökumətinin iradəsi, yürüdülən müdrik siyasət, Azərbaycan xalqının əzmi, həmrəyliyi, bütün qüvvələrin səfərbər olunması, Azərbaycan əsgərinin şücaəti sayəsində dəyişdirilmişdir.

Minsk qrupu həmsədr ölkələrinin liderləri münaqişənin hərbi həlli olmadığını iddia etsə də, Azərbaycan bunu hərbi-siyasi vasitələrlə etdi.

Prezident İlham Əliyev: "Hərbi variant yoxdur" deyənlər sadəcə, mövcud vəziyyəti olduğu kimi saxlamaq istəyirdilər.

Hazırda Rusiya sülhməramlıları Dağlıq Qarabağda öz fəaliyyətinə başlayıblar. Ermənistan və Azərbaycan da bunu dəstəkləyib. Vəziyyət müəyyən dərəcədə sabitdir.

Sülhyaratma əməliyyatları müzakirə olunmuş razılaşmanın, Madrid prinsiplərinin bir hissəsidir.

Prezident İlham Əliyev: Dağlıq Qarabağ münaqişəsi artıq tarixə qovuşub.

Beynəlxalq vasitəçilər haqqında

10 il əvvəl Minsk qrupunun həmsədri olan ölkələrin prezidentləri birgə bəyannamə ilə çıxış edərək status-kvonun qəbuledilməz olduğunu bildirmişlər. Azərbaycan bəyannaməni dəstəkləsə də, müəyyən vaxtdan sonra həmsədr ölkələrin liderləri status-kvonun onlar üçün qəbul edilən olması haqda mesajlar vermişlər.

Pezident İlham Əliyev: Minsk qrupu münaqişənin həllində heç bir rol oynamayıb.

Halbuki bunu etmək üçün Minsk qrupu 28 il ərzində müvafiq mandata sahib idi.

BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə, ATƏT-in qərarlarına, digər beynəlxalq təşkilatların qərarlarına baxmayaraq, bu qədər illər ərzində münaqişə niyə həll olunmurdu?

Minsk qrupunun həmsədrləri BMT Təhlükəsizlik Şurasının daimi üzvü olsalar da, Ermənistan qoşunlarının çıxarılmasını tələb edən 4 qətnamənin icrası üçün heç nə etməyiblər.

Beynəlxalq vasitəçi olan ölkələrin hər biri öz imkanlarından, potensialından istifadə edərək Ermənistanı işğal etdiyi əraziləri tərk etməsi üçün mesaj verə bilərdi, lakin belə mesaj verilməyib.



Ermənistana ciddi sanksiyalar tətbiq olunsaydı, işğalçı qüvvələrini geri çəkərdi.

İşğal etdiyi ərazilərin kiçik hissəsindən belə çıxarması üçün Ermənistana təzyiq olunmayıb.

Minsk qrupunun ideyalarla çıxış etmək və yaradıcı olmaq istiqamətində müəyyən fəaliyyəti olsa da, bunlar heç bir nəticə verməmişdir.

Münaqişənin dondurulmuş kimi görünməsi beynəlxalq vasitəçiləri qane edib.

Minsk qrupunun gələcək mandatı şübhəlidir və Azərbaycanla razılaşdırılmalıdır.

Prezident İlham Əliyev: Mən Minsk qrupunu səfərə dəvət etməmişəm. Lakin mənə məlumat verəndə ki, Minsk qrupu gəlmək istəyir, dedim gəlsinlər, etiraz etmirəm.

ATƏT-in Minsk qrupunun həmsədrləri regiona qərəzsiz və kollektiv qaydada sabitliyin, rifahın gətirilməsi üçün tamamilə yeni bir vəziyyət yarandığını etiraf edirlər.

Minsk qrupunun gələcək mandatının da Azərbaycandan asılı olduğu qəbul edilir.

Azərbaycan və Ermənistan ordularının müqayisəsi

Pezident İlham Əliyev: Ermənistan döyüş meydanında məğlub olaraq kapitulyasiya Bəyanatı imzalamağa məcbur olmuşdur.

Ermənistan üçün alçaldıcı kapitulyasiya imzalamasının tam məsuliyyəti Paşinyanın diktatura rejiminin üzərinə düşür.

Ermənistanın əvvəlki rəhbərlərinin vaxtında nəticə olmasa da, danışıqlar gedirdi, Paşinyan danışıqlar prosesinin formatını alt-üst etməyə cəhd etmişdir, onun təxribatçı hərəkətləri və bəyanatları danışıqları tamamilə mənasız etmişdir.

Paşinyanın 7 şərtinə qarşı Azərbaycanın yeganə şərti işğalçının torpaqlarımızdan çıxması olmuşdur. İkinci Qarabağ müharibəsinin gedişində də Azərbaycan tərəfinin yeganə şərti bu olmuşdur.

Prezident İlham Əliyev: Paşinyan yalançıdır, indi də yalan danışmağa davam edir.

Paşinyan Sarkisyan və Köçəryan rejiminə qarşı etiraz dalğası üzərində hakimiyyətə gəlmiş təsadüfi insandır.

Paşinyan səhv etdi və layiqli cəzasını aldı. O, bu alçaltmaya layiqdir.

Ermənistan ordusu darmadağın edildi, ruhdan düşdü və artıq nəsə etmək üçün heç bir imkana malik deyildi.

Sırvavi ermənilər zorla orduya cəlb edilmiş, əsgərlər qaçmasın deyə səngərlərdə bir-birinə zəncirlənmişdir.

Xüsusi şəxslər Ermənistan qoşunlarının arxasında dayanaraq qaçmağa cəhd edən öz millətinin nümayəndələrini qətlə yetirirdilər.

Azərbaycan Ordusu məğlubedilməz olduğunu nümayiş etdirmiş, işğal olunmuş ərazilərin böyük hissəsini, 300-dən artıq şəhər, qəsəbə və kəndi, o cümlədən Azərbaycanın tarixi Şuşa şəhərini 44 gün ərzində azad etmişdir.

Üçtərəfli bəyanat imzalandıqdan dərhal sonra Azərbaycan döyüşü dayandırmışdır.

Azərbaycan yalnız Vətən müharibəsi aparmışdır, etnik təmizləmə və ya başqa ölkənin ərazilərini tutmaq kimi heç bir hədəfi olmamışdır. Halbuki, Azərbaycan ordusunun potensialı buna tam imkan verir.

Prezident İlham Əliyev: Azərbaycan Sarkisyan və Köçəryan ordusunu məğlub etmişdir.

İşğalçıların Ermənistan ordusu və demək olar ki, erməni dövləti məhv olmuş, erməni millətçilərinin üzdəniraq "artsax" xülyaları dağıdılmışdır.

Rusiya Prezidentinin müraciəti əsasında Azərbaycanın Kəlbəcərin boşaldılması üçün verdiyi əlavə 10 gün vaxtdan ermənilər qarət, vandalizm, vəhşilik, ekoloji terror məqsədilə istifadə etmişlər.

Kəlbəcərdə meşələr, su elektrik stansiyaları, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda bütün yaşayış binaları, tarixi-mədəni abidələr dağıdılmışdır.

Ermənistanın və qondarma Dağlıq Qarabağ rejiminin rəhbərləri müharibə canilərdirlər. Gəncənin ballistik raketlə atəşə tutulması, Bərdə və Tərtər şəhərlərinin kasetli və fosforlu sursatla atəşə məruz qalması, işğal edilmiş ərazilərdə qanunsuz məskunlaşdırma hərbi cinayətlərdir.

Prezident İlham Əliyev: Sarkisyan və Köçəryan hərbi cinayətkardırlar.

Erməni işğalçılarının mülki əhaliyə, infrastruktura, dini və mədəni abidələrə vurduğu ziyanın müvafiq təhlili aparılır. Hər bir şey sənədləşdiriləcək və zəruri hüquqi addımlar atılacaq.

Qanunsuz məskunlaşdırma hərbi cinayətdir. İşğal olunmuş ərazilərdə suriyalı erməniləri yerləşdirməyi planlaşdırırdılar və onlardan muzdlular kimi istifadə edirdilər. Əlimizdə ermənilərin istifadə etdiyi muzdlular barədə saysız-hesabsız faktlar var.

Prezident İlham Əliyev: Xalqımız, ölkəmiz qələbə qazandı, çünki həqiqət və beynəlxalq hüquq bizim tərəfimizdə idi.

Prezident İlham Əliyev: Ermənistan faşizmi yenidən baş qaldırarsa, onun başını dəmir yumruqla əzəcəyik. Bu dəfə biz onları tamamilə darmadağın edəcəyik. Bu, heç kəs üçün sirr qalmalı deyil.

Regionun və Azərbaycandakı erməni icmasının gələcəyi

Azərbaycan dövlətinin erməni xalqı ilə problemi yoxdur. Bizim davamız işğalçılarladır, ərazimizi işğal edən cinayətkarlarladır.

Prezident İlham Əliyev: Azərbaycan vətəndaşı olan ermənilər təhlükəsizlik və ləyaqət şəraitində yaşaya bilərlər.

Dağlıq Qarabağın erməni icmasının güzəranı Azərbaycan idarəçiliyi altında daha yaxşı olacaq. Qondarma rejim öz erməni vətəndaşlarını səfalət içində, qul kimi yaşamağa məcbur etmişdir.

Artıq Ağdam rayonunda Monitorinq Mərkəzi yaradılır. Türkiyə-Rusiya Monitorinq Mərkəzi atəşkəs rejiminə nəzarət edəcək. Bu, regional əməkdaşlığın çox yaxşı təzahürüdür.

Prezident İlham Əliyev: Regiona yeni canlanma gətirilməlidir. Regionda yeni inkişaf olmalıdır. Azərbaycan buna hazırdır.

Ermənistanın regional əməkdaşlıq platformalarında təmsil olunması Paşinyan rejimindən, yaxud da həmin rejimi devirəcək dairələrdən asılı olacaq.

Bu, çoxtərəfli platforma ola bilər. Bu işbirliyi platformasında iştirak edən bütün bölgə ölkələri bundan ancaq faydalana bilər.

Beynəlxalq ictimaiyyət Ermənistana birbaşa mesaj verməlidir. Gələcəkdə heç zaman Azərbaycan xalqının hissləri ilə oynamasın, yoxsa ağır cəzadan yaxa qurtara bilməyəcəksiniz!

Naxçıvanla quru əlaqəsinin yaradılması həyati əhəmiyyət kəsb edir, vacib tarix nailiyyətdir və regionun gələcəyi ilə bağlı müzakirələr üçün yeni imkanlar yaradır.

# Vətən yaxşıdır

***Azərbaycan tarixinin şanlı 44 gününə həsr "Vətən yaxşıdır" adlı online konfransı keçirilmişdir. Konfransı Qobustan Rayon Gənclər evinin direktoru Anar İrzaquliyev açdı.***

Lahihənin rəhbərləri Rauf Babaşov adına Cəmcəmli kənd tam orta məktəbinin müəllimi Günay Bayramlı və Bakı Avrasiya Universitetinin filologiya fakultəsinin tələbəsi Mirzə Mirzəliyev idi.

Öncə şəhidlərimiz bir dəqiqəlik sükutla yad olundu.

8 Noyabr tarixinin qızıl hərflərlə yazılması hər birimizi sevincə bürüdü. Bizə bu əvəzsiz duyğuları bəxş edən Azərbaycan salnaməsində yeni tarix yazan sərkərdəmiz, Ali Baş Komandanımız İlham Əliyevə minnətdarlıq edildi.Şəhidlərimizə Allahdan rəhmət , ailələrinə səbr, qazilərə, yaralılara şəfa, Vətən Müharibəsinin iştirakçılarına,ön cəbhədə olduğu kimi arxa cəbhədə də bir olan birlik olan vətəndaşlarımıza, ümumilikdə bütöv olan Azərbaycanımıza xoş, firəvən günlər arzulanaraq dilə gətirildi.

Çıxışlarda şəhidlərmizin, qazilərmizin cəbhədəki şücaətlərindən, keçirdikləri döyüş yollarından bəhs olundu.

Konfransda Aprel döyüşlərinin qaziləri ilə bərabər, Vətən Müharibəsi qazilərində iştirak edərək, öz fikirlərini, qələbə sevincinin yaşatdığı duyğuları iştirakçılarla bölüşdülər.

Eyni zamanda Aprel döyüşlərində düşmənin bir şox hərbi texnikasını məhv etmiş, Vətən Müharibəsi Qəhrəmanı, həmyerlimiz mayor Mirdamət Bağıyev də təəssüratlarını bölüşdü.

Konfransda məktəb rəhbərləri, müəllimlər, gənclər və Qobustan RİH-nin Ərazi idarətmə və yeri özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri Elman Mikayılov iştirak etdilər və hər biri ayrılıqda öz fikirlərini bildirdilər.

Ona görə də biz layihə rəhbərləri konfrans iştirakçılarına fəal iştiraklarına görə təşəkkür edir, bu layihədə bizə dəstək olan hər bir kəsə minnətdarlığımızı bildiririk.

Allah bütün şəhidlərimizə rəhmət etsin, qazilərimizə şəfa versin.

***Günay Bayramlı***

# "Sözdən əmələ" prinsipi ilə addımlayan Prezident

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ulu öndər Heydər Əliyevin miras qoyduğu siyasi kursun məsuliyyəti ilə, hər zaman inkişaf və tərəqqi naminə dayanmadan çalışmaqdadır.**

Ölkə rəhbəri olaraq qarşısına qoyduğu məqsədlərə daima nail olan İlham Əliyev, bu gün xalqın inamı və birliyi ilə gələcəyə dair qərarlarda daha qətiyyətli addımlar atmaqdadır. Vətəndaşlarla mütəmadi olan görüşlərindən birində "Azərbaycanın Prezidenti kimi mən çalışacağam ki, hər bir vətəndaş, hər bir şəxs bu böyük layihələrdən, Azərbaycanda gedən inkişafdan bəhrələnsin. Bu, mənim vəzifəmdir, mənim borcumdur. Mən də bu vəzifəni ləyaqətlə yerinə yetirəcəyəm" fikirlərini səsləndirən ölkə başçısı həqiqətən də öz fikirlərinə sadiq qalaraq Azərbaycan və xalqımız naminə yüksək səviyyəli işlər görməkdədir.

Ölkə ərazisində siyasi və sosial sabitlik, iqtisadi inkişaf, hərtərəfli tərəqqi, xarici siyasətin təşkili və qorunması istiqamətində cənab Prezidentin rolu əvəzolunmazdır. Qloballaşma və dövrün müasir tələblərinə uyğunlaşma istiqamətində, həmçinin bütün sahələrdə tətbiq edilən yeniliklər birmənalı olaraq ölkə başçısının rəhbər olaraq diqqət və qayğısının bariz nümunəsidir. Bununla yanaşı xarici siyasətdə qlobal və regional səviyyəli məsələlərdə ölkəmizin milli maraqlarının cənab Prezident tərəfindən qorunmasının təmin edilməsi də əsl liderə xas olan fəaliyyətdir.

Prezident İlham Əliyevin fəaliyyəti ilə Azərbaycanın dövlətçiliyi dünya ictimaiyyəti qarşısında təsdiqləyib. Bu dünya tarixində çox əhəmiyyətli hadisələrdəndir. Azərbaycan üçün çətin mərhələlərdən biri olan bu sınaq dövrü də məhz cənab Prezidentin uğurlu siyasıti ilə geridə qalmışdır. Artıq dünya ictimaiyyəti Azərbaycanı tam müstəqil, öz inkişaf kursunu və dayanıqlı tərəfdaşlığı olan ölkə kimi tanıyır. Azərbaycan ölkə başçısının peşəkar fəaliyyəti nəticəsində qlobal arenada böyük nüfuz qazanmış, əhəmiyyətli məsələlərdə söz sahibi olan dövlətlər arasında yer almışdır. Ölkəmizin etibarlı tərəfdaş və dost kimi tanınmasına nail olan Prezident İlham Əliyev beynəlxalq münasibətlər sistemində ölkəmizin özünəməxsus yerini möhkəmləndirib. Azərbaycan nüfuzlu ölkə olaraq artıq regionun ən böyük dövlətləri səmərəli əməkdaşlıq etməklə yanaşı, həm də onların maraqlarının balanslaşmasında ciddi rol alır. Sözsüz bu onun səbəbidir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə bütün böyük dövlətlərin başçıları xüsusi hörmət və rəğbətlə yanaşır. Bununla yanaşı uğurla davam etdirilən siyasətin nəticəsi olaraq Azərbaycan Şərq və Qərb arasında etibarlı və inamlı vasitəçi rolunu oynamaqdadır.



**Şahin Seyidzadə,**
*Milli Məclisin deputatı*

Beynəlxalq təşkilatlarda əhəmiyyətli olaraq Azərbaycanın söz sahibi olması, bir sıra mötəbər tədbirlərə ev sahibliyi etməsi bir daha ölkəmizin dünya ölkələri arasında olan nüfuzunu göz önünə qoyur. Azərbaycanın 2019-2022-ci illərdə "Qoşulmama Hərəkatı"na sədrlik etməsi dövlətimizin qlobal proseslərdəki nüfuz və artırmaqla yanaşı, həm də beynəlxalq müstəvidə mövqelərimizin möhkəmlənməsi üçün böyük rol oynayır. Xüsusilə də pandemiya dövründə ölkə başçısı tərəfindən "Qoşulmama Hərəkatı"nın iclasında BMT səviyyəsində irəli sürülən təşəbbüsünün dünya ölkələri tərəfindən dəstəklənməsi bir daha sübut edir ki, ölkə başçısının siyasi səriştəsi və strategiyası nəticəsində Azərbaycan qlobal səviyyədə güvənilən ölkələrdəndir.

Ölkə başçısı İlham Əliyev rifah və inkişaf naminə, həmçinin gələcək inkişafa zəminin yaradılması üçün ən böyük vasitəsi olaraq islahatların keçirilməsinə başlanılmışdır. Formalaşmış islahat strategiyası birmənalı olaraq ölkəmizin müstəqilliyinin möhkəmləndirilməsi, gələcək nailiyyətlərin əldə edilməsi ilə yanaşı, həm də qeyri-neft sektorunun inkişafına hədəflənmişdir. Cənab Prezidentin rəhbərliyi ilə keçirilən islahatların prinsipləri xalqın istəyi və müasir çağırışlara cavab verəcək formada aparılaraq, Azərbaycanım dünya ölkələri sırasında öz yerini tutmasına yönəlmişdir. İslahatların dərinləşməsi, intensiv hal alması və ümumiyyətlə ölkədə olan gənc kadrlara imkanların yaradılması birmənalı olaraq "sözdən əmələ" prinsipinin nümunəsidir. Bu gün aparılan bütün islahatlar bir-başa olaraq ölkə gənclərinin gələcəyinin təmin edilməsi istiqamətində qurulmaqla, gələcəyə olan investisiya rolunu oynayır.

Alınan uzaqgörən və düşünülmüş qərarlarla Prezident İlham Əliyev bütün istiqamətlərdə islahatlar hər təbəqənin mənafe və gözləntilərinin əhatə edir. Ümumiyyətlə islahatların aparılması, həm də yeni təcrübənin tətbiqinə gətirib çıxarır. Neft və qeyri-neft sektorlarında aparılan islahatların nəticələrinin ölkə daxilində yüksək səviyyədə görülməsi ilə yanaşı beynəlxalq arenda da rəğbətlə qarşılanır. Azərbaycanda aparılan islahalatlar, milli təfəkkürün və maraqların müdafiəsi və bununla yanaşı insan kapitalına verilən dəyər, ayrılan yatırımlar böyük bir təcrübənin nümunəsidir.

Ölkə başçısının rəhbərliyi ilə son 17 ildə qara qızılın insan kapitalına çevrilməsi prosesində islahatları davam edir. Bunun üçün isə təməldə təhsilin yüksək keyfiyyətli təşkili məqsədi ilə təhsil islahatları dərinləşmişdir. Təhsil müəssisələrinin son illərdə maddi-texniki bazasının yüksəldilməsi, yeni təhsil müəssisələrinin inşası, mövcudlarının müasir tələblərə cavab verən formada əsaslı təmiri, xarici təcrübənin ölkəmizə inteqrasiyası, təhsildə rəqəmsallaşma, dövrün tələblərinə uyğun elektron sistemlərin formalaşdırılması və digər bütün məsələlər bu sahədə aparılan islahalatlar kimi qeyd etmək olar. Birmənalı olaraq bu işlərin görülməsi ilə fəaliyyətdə "sözdən əmələ" prinsipinin faydalılığı nəzərə çarpır. Aparılan hər bir islahat isə davamında yeni çağırış, məqsəd və hədəflər ortaya çıxarır. Bu isə fəaliyyətdə daima dayanıqlı davamlılığın təmin edildiyini göstərir. Təhsil, elm, gənclər siyasəti, innovasiya, iqtisadiyyat kimi sahələrlə yanaşı, hərbi və ordu quruculuğu istiqamətində aparılan işlər, münaqişə həllində olan mövqemizdə sözdə yox, əməldə atılan addımlara böyük zəmin yaratdı. Məhz Dağlıq Qarabağ münaqişəsinin həlli yolu məhz Ali Baş Komandan İlham Əliyevin siyasi səriştəsi və milli mövqenin qətiyyətlə qorumasından keçərək baş verdi.

Münaqişənin yekunu və sülh yolu ilə həlli üçün Azərbaycan daima danışıqlar masasında öz sözünü demişdir. Lakin qondarma siyasət yeridən qarşı tərəfindən danışıqlar və regionda sülhün bərqərar olmasından boyun qaçırmaqda idi. Nəticədə isə Azərbaycan öz əzəli torpaqları olan Dağlıq Qarabağ və ətraf rayonlarını hərbi-siyasi yolla işğaldan azad etdi. 44 gün ərzində davam edən müharibə müddətində cənab Prezident, Ali Baş Komandan İlham Əliyev həm siyasi, həm də hərbi meydanda öz qətiyyətini, möhkəm iradəsini və əsl sərkərdəliyini göstərdi. Bu müharibə dövründə xalqımız ölkə başçısı və müzəffər ordunun ətrafında birləşərək vahid birlik göstərmişdir. Ölkə başçısına olan inam və dəstək, müzəffər ordunun gücü məhz son 200 ildə ölkə tarixində yaşanmayan bir hadisənin baş tutmasına gətirib çıxardı.

Ölkəmizin geridə qalan 17 il ərzində olan proqressiv inkişafı çərçivəsində görə bilərik ki, ölkə başçısının xüsusi diqqət və qayğısı ilə vətəndaşların rifahı, parlaq gələcəyi, habelə ərazi bütövlüyümüz, sektorlar üzrə inkişaf, nüfuz və qazanclar istiqamətində əsl fəaliyyətlər sözdə yox əməldə baş tutur. Müəyyən dövrlərdə çətin keçid mərhələləri geridə qalaraq, parlaq gələcəyin növbəti səhifələri üçün yeni çağırışlara doğru ölkəmiz cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə irəlləyir. Atılan hər bir addım, alınan hər bir qərarda bir daha şahid ola bilirik ki, Azərbaycan Respublikasının Prezidenti fəaliyyətində "sözdən əmələ" prinsipi ilə addımlayan Prezidentdir.

# Qobustan rayon Gənclər və İdman İdarəsi xüsusi karantin rejimi dövründə

***2020-cu ilin mart ayından dünyanı cənginə almış koronavirus pandemiyası ilə əlaqədar olaraq Gənclər və İdman İdarəsi sentyabr - dekabr aylarında da internet resurslarından istifadə etməklə uşaqlar və gənclər arasında asudə vaxtlarının səmərəli təşkili ilə bağlı tədbirlər həyata keçirmişdir.***

4 sentyabr 2020-ci il tarixində Qobustan rayon Gənclər və İdman İdarəsinin və Gənclər Mərkəzinin birgə təşkilatçılığı ilə "Sağlam həyat tərzi və qaydaları" mövzusunda vebinar keçirilmişdir. Onlayn keçirilmiş tədbirdə Gənclər Mərkəzinin direktoru Anar Rzaquliyev, Gənclər və İdman İdarəsinin baş məsləhətçisi Elman Salmanov, Əlbəyaxa döyüş növləri üzrə dəfələrlə Dünya və Avropa çempionları Qobustan gəncləri İbad Rzazadə və Toğrul Mikayılov çıxış edərək sağlam həyat tərzi haqqında öz fikir və mülahizələrini bölüşmüşlər. Sürətli həyat tempi, ekologiyasının pisləşməsi, informasiya və texniki xarakterli gərginliyin artması orqanizmə mənfi təsir göstərir. Ona görə də sağlamlığı qorumaq qaydalarını bilmək və ona əməl etmək vacibdir. Sağlam həyat tərzi gümrah yaşamağı və xəstəliklərdən uzaq olmağı nəzərdə tutur.

07-13 sentyabr 2020-ci il tarixlərində uşaqlar və gənclər arasında "21 Sentyabr - Beynəlxalq Sülh günü" münasibətilə "Biz sülhə səs veririk" onlayn rəsm müsabiqəsi keçirilmişdir. Müsabiqədə R.Behbudov adına Qobustan şəhər İncəsənət məktəbinin yetirmələri ilə yanaşı, təhsil müəssisələrinin də şagirdləri həvəslə iştirak etmişlər.



14-20 sentyabr 2020-ci il tarixlərində uşaqlar və gənclər arasında "21 Sentyabr - Beynəlxalq Sülh günü" münasibətilə onlayn şeir müsabiqəsi keçirilmişdir.

21-27 sentyabr 2020-ci il tarixlərində uşaqlar və gənclər arasında əl işlərindən ibarət "Bacarıqlı əllər" müsabiqəsi keçirilmişdir.

27 sentyabr 2020-ci il tarixindən Azərbaycan kənd və digər yaşayış məntəqələrini mərmi və reaktiv silahlardan atəşə tutan erməni işğalçılarına qarşı cavab tədbirləri həyata keçirən Ali Baş Komandan İlham Əliyevin başçılığı altında Silahlı Qüvvələrimiz əzəli torpaqlarımız olan doğma Qarabağı azad etməyə başladı. Ölkəmizin bütün vətəndaşları kimi Qobustanlı gənclər də könüllü olaraq silaha sarıldılar və işğal olunmuş ərazilərimizi mənfur düşməndən təmizləmə əməliyyatlarına qoşuldular. Bu gənclər arasında olan idarənin nəzdində fəaliyyət göstərən İdman məktəbinin yetirmələri öz qəhrəmanlıqları ilə fərqlənmişlər. Gənclər və İdman İdarəsinin əməkdaşları hərbi çağırışçıların və könüllülərin cəbhəyə yolasalma mərasimlərində və digər təşkilati məsələlərdə yaxından iştrak etmişlər. Ali Baş Komandanın qətiyyəti, əsgərlərimizin misilsiz qəhrəmanlığı sayəsində 44 gün ərzində erməni işğalçıları ağır məğlubiyyətə uğradıldı və təslim olmağa məcbur edildi. Ağır döyüşlərdə 3000-ə yaxın igid soydaşımız Vətən uğrunda canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar. İstər erməni faşizmi üzərində qələbədə böyük rol oynamış şəhidlərimizin dəfn olunma, istərsə də fəxrimiz olan qazilərimizin qarşılama mərasimlərinin təşkilində Gənclər və İdman İdarəsinin əməkdaşları fəal iştirak etmişlər.

16-22 noyabr 2020-ci il tarixlərində uşaqlar və gənclər arasında Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan Vətən müharibəsində qazandığı qələbələrə həsr olunmuş vətənpərvərlik mövzusunda onlayn şeir müsabiqəsi keçirilmişdir.

23 - 29 noyabr 2020-ci il tarixlərində uşaqlar və gənclər arasında Covid- 19 pandemiyası ilə bağlı rəsm müsabiqəsi keçirilmişdir.

04-13 dekabr 2020-ci il tarixlərində uşaqlar və gənclər arasında Ümummilli lider Heydər Əliyevin vəfatının ildönümü münasibətilə "Heydər Əliyev və Azərbaycan gəncliyi" mövzusunda inşa yazı müsabiqəsi keçirilmişdir.

Keçirilmiş bu tədbirlərdə R.Behbudov adına Qobustan İncəsənət məktəbinin şagirdlərinin, İsmayıllı Regional Mədəniyyət İdarəsinin Qobustan şəhər Mədəniyyət evinin, Sündü kənd Mədəniyyət evinin və Cəyirli kənd klubunun dərnək üzvləri fəal iştirak edərək Qobustan rayon Gənclər və İdman İdarəsinin diplom və fəxri fərmanları ilə mükafatlandırılmışlar.

# Doing Business 2020 hesabatında Azərbaycanın göstəriciləri

**Dünya Bankı: Azərbaycan dünyanın ən islahatçı on ölkəsindən biridir**

Dünya Bankı Qrupunun mühüm nəşrlərindən hesab edilən Doing Business Hesabatında qeydə alınmış məlumat uyğunsuzluqları ilə bağlı Dünya Bankının Daxili Auditi tərəfindən aparılmış müstəqil araşdırmanın nəticələri elan edilmişdir. Aparılmış müstəqil araşdırmanın nəticəsində Azərbaycanın Doing Business 2020 Hesabatında mövqeyi 6 pillə yaxşılaşdırılmış, ölkəmiz bir daha dünyanın "Ən islahatçı on ölkəsi" sırasına daxil olmuşdur.

Xatırladaq ki, 27 avqust 2020-ci il tarixində Dünya Bankı tərəfindən yayımlanmış press relizdə bildirilmişdir ki, bir sıra üzv ölkələrin Doing Business hesabatındakı məlumatlarının Bankın daxilində emal edilməsi prosesində uyğunsuzluqlar aşkarlanmış, bu uyğunsuzluqların mahiyyətinin müəyyən edilməsi istiqamətində müstəqil araşdırma aparılacağı qeyd edilmişdir.

Dünya Bankının 16 dekabr 2020-ci il tarixli press relizində qeyd edilir ki, Dünya Bankının Daxili Audit strukturları tərəfindən 2016, 2017, 2018, 2019 və 2020-ci illər üzrə məlumatların müfəssəl diaqnostikası aparılmış, ölkələrin reytinqlərinin bu dəyişikliklərin hesabatın metodologiyaları ilə uyğunluğu bir daha nəzərdən keçirilmiş və nəticədə ölkələrin göstəriciləri ilə bağlı məlumatlar yenilənmişdir.

Müvafiq araşdırmalar nəticəsində Azərbaycanda 3 istiqamətdə aparılmış islahatların ("elektrik təchizatı şəbəkələrinə qoşulma, "müqavilələrin icrası", "sərhəddə ticarət" indikatorları üzrə) "Doing Business 2020" hesabatında lazımınca qiymətləndirilmədiyi və daha az balla qiymətləndirildiyi məlum olmuşdur. Qeyd edək ki, müvafiq diaqnostik qiymətləndirmə 4 ölkəni - Azərbaycan, Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri və Çini əhatə etmişdir.

Qeyd edək ki, müvafiq düzəlişlərdən sonra "Doing Business 2020" hesabatında Azərbaycanın əldə etdiyi bal 76,7 baldan 78,5 bala qədər artırılıb. Bununla da, ölkənin qlobal reytinq sıralamasında mövqeyi 191 ölkə arasında 34-dən 28-ə yüksəlmişdir. Bu mövqe irəliləməsi nəticəsində Azərbaycan Dünya Bankı tərəfindən yenidən "dünyanın ən islahatçı on ölkəsindən biri" kimi qiymətləndirilib. Xatırladaq ki, "Doing Business 2019" hesabatında da Azərbaycan "dünyanın ən islahatçı on ölkəsindən biri" kimi qiymətləndirilmişdi. Aparılmış müstəqil audit yoxlamalarının nəticəsi olaraq, Azərbaycanın reytinqinin 3 göstərici üzrə yenilənməsi haqda ətraflı məlumat press relizə əlavədə qeyd edilmişdir.

Azərbaycanın Dünya Bankı ilə sıx əməkdaşlığının 28 illik tarixi vardır. Dünyanın mühüm inkişaf institutu olan Dünya Bankı ölkəmizdə həyata keçirilən geniş miqyaslı islahatlara daim dəstək vermişdir.

Doing Business Hesabatında qeydə alınmış məqamlarla bağlı müstəqil araşdırma Dünya Bankının yüksək peşəkarlığını göstərməklə yanaşı, Azərbaycanın Dünya Bankı, istərsə də digər tərəfdaşları ilə münasibətlərində dürüstlüyün ən mühüm dəyər olduğunu bir daha sübut etmişdir.

**Azərbaycanın Doing Business Hesabatındakı reytinqinin 3 göstərici üzrə yenilənməsi haqda ətraflı məlumat**

**1. "Elektrik təchizatı şəbəkələrinə qoşulma" indikatoru üzrə**

Bu indikator vasitəsi ilə elektrik təchizatı şəbəkələrinə qoşulma üzrə ərizələr, elektrik enerjisi müəssisələri ilə müqavilələr, elektrik paylayıcı şirkətlər və digər agentliklər tərəfindən bütün zəruri yoxlamalar və icazələr, habelə xarici və yekun qoşulma işləri və s. üzrə islahatların aparılması ölçülür. Müvafiq istiqamətdə coğrafi informasiya sisteminin kommunal sistemdə tətbiqi islahatı səhvi yoxlamaların aparılması zərurətini aradan qaldırmış və müvafiq sənədləşmələrin aparılması müddətinin azalmasına səbəb olmuşdur. Xüsusilə, texniki şərtlər üçün səhvi müayinələrin aparılması proseduru ləğv edilmiş və texniki şərtlərin qəbul edilməsinə olan müddət azaldılmışdır. Beləliklə, hesabatda texniki şərtlərin və elektrik sistemlərinə qoşulmanın bir paketdə cəmlənməsi nəticəsində elektrikə qoşulma üzrə prosedurların sayının 5-ə, müddətin isə 32 günə kimi azaldığı öz əksini tapmışdır. Qeyd edək ki, müvafiq göstəricilər daha öncə hesabatda, müvafiq olaraq, 7 və 41 gün kimi əks olunmuşdu.

**2. Müqavilələrin icrası indikatoru üzrə**

"Doing Business" hesabatı "Hüquqi proseslərinin keyfiyyəti indeksi" vasitəsi ilə hər bir ölkənin öz məhkəmə sistemində aşağıdakı dörd sahə üzrə yaxşı təcrübələri tətbiq edib-etmədiyini müəyyən edir: məhkəmə strukturu və prosesləri, məhkəmə işinin idarə edilməsi, avtomatlaşdırılmış məhkəmə sistemi və mübahisələrin alternativ qaydada həlli. Müvafiq sub-indikator üzrə aparılmış diaqnostik yoxlamalar nəticəsində Azərbaycanın göstəricisi 6,5 baldan 10,5 bala kimi artırılmışdır. Bununla da, ölkədə məhkəmə proseslərinin təyini, hakimlər və vəkillər üçün elektron menecment sisteminin tətbiqi kimi bir sıra mühüm islahatların aparılması Dünya Bankı tərəfindən təsdiq olunmuşdur.

**3. Sərhəddə ticarət indikatoru üzrə**

"Doing Business" hesabatı ixrac və idxal olunan məhsulların daşınma prosesi ilə bağlı vaxt və xərcləri qeydə alır, mal partiyasının ümumi idxal və ixrac prosesində üç prosedur qrupu (sənədlərlə bağlı tələblərə əməletmə, sərhəddə tələblərə əməletmə və yüklərin ölkədaxili daşınması) ilə bağlı vaxt və xərcləri qiymətləndirir. Sərhəddə ticarətin asanlığı baxımından ölkələrin reytinqi onların sərhəddə ticarət indikatoru üzrə ballarının sıralanması əsasında müəyyən edilir. Müvafiq indikator üzrə audit qrupu tərəfindən aparılmış araşdırmalar nəticəsində "ixraca sərf olunan müddət: sərhəd prosedurları (saat)" sub-indikatoru üzrə müddətin 12, "idxala sərf olunan müddət: sərhəd prosedurları (saat)" sub-indikatoru üzrə müddətin 4, "ixraca sərf olunan müddət: sənədləşmə prosedurları (saat)" sub-indikatoru üzrə müddətin 28,5, "idxala sərf olunan müddət: sənədləşmə prosedurları (saat)" sub-indikatoru üzrə müddətin 26 saat, "ixraca sərf olunan məbləğ: sənədləşmə prosedurları (ABŞ dolları)" sub-indikatoru üzrə xərcin 150 ABŞ dolları kimi olması təsbit olunmuşdur. Qeyd edək ki, müvafiq sub-indikatorlar üzrə göstəricilər daha öncə hesabatda 17, 14, 33, 33 saat və 250 ABŞ dolları kimi qiymətləndirilmişdi.

Beləliklə, Dünya Bankı tərəfindən aparılmış yeni qiymətləndirmə ölkədə "sərhəddə ticarət" prosedurlarında idxal deklarasiyası, ixrac gömrük sənədləşmələrinin sadələşməsi üzrə mühüm islahatların aparılmasını bir daha təsdiq etmişdir.

"Doing Business 2020" hesabatında Azərbaycanın mövqeyi üzrə yenilənmiş qiymətləndirmə Cədvəli

İndikatorlar

**Daha öncə nəşr olunmuş hesabat üzrə mövqe**
**Müvafiq düzəlişdən sonra yekun göstərici**

"Doing Business 2020" hesabatında Azərbaycanın mövqeyi üzrə yenilənmiş qiymətləndirmə Cədvəli

| İndikatorlar | Daha öncə nəşr olunmuş hesabat üzrə mövqe | Müvafiq düzəlişdən sonra yekun göstərici |
|---|---|---|
| **Elektrik təchizatı şəbəkələrinə qoşulma** | | |
| - prosedurların sayı | 7 | 5 |
| - müddət (günlər) | 41 | 32 |
| **Müqavilələrin icrası** | | |
| - hüquqi proseslərinin keyfiyyəti indeksi | 8 | 10,5 |
| **Sərhəddə ticarət** | | |
| - ixraca sərf olunan müddət: sərhəd prosedurları (saat)" | 17 | 12 |
| - idxala sərf olunan müddət: sərhəd prosedurları (saat) | 14 | 4 |
| - ixraca sərf olunan müddət: sənədləşmə prosedurları (saat)" | 33 | 28,5 |
| - idxala sərf olunan müddət: sənədləşmə prosedurları (saat) | 33 | 26 |
| - ixraca sərf olunan məbləğ: sənədləşmə prosedurları (ABŞ dolları) | 250 | 150 |

Dünya Bankının aidiyyatı daxili nəzarət qurumları ölkələrin hesabatdakı mövqeyinə və işgüzar imicinə xələl gətirmiş bu uyğunsuzluqlara yol vermiş bankın məsul şəxsləri barədə Bankın Biznes Etikası qaydalarına uyğun inzibati tədbirlər görəcəkdir.

# Onun xatirəsi qəlbimizdə əbədi yaşayacaqdır



*Abdulhəsən Ağayev 1947-ci ildə Qobustan rayonunun Poladlı kəndində dünyaya göz açıb.*

Atası Böyük Vətən müharibəsinin iştirakçısı olmuş Ağadayı kişinin evi el dili ilə desək, qonaqlı-qaralı olub. Ailənin ilk övladı olan Abdulhəsən də həmin qonaqların xeyir-duasını alaraq, öz bəhrəsini görmüşdür. Atalar demişkən " hər ağızda bir dua var" kəlamı yerinə düşmüşdür.

Orta məktəbi bitirən Abdulhəsən sənədlərini o vaxtkı Bakı Plan Uçot texnikumuna veir. Həmin texnikuma daxil olur və oranı bitirərək mühasib ixtisasına yiyələnir.

Doğma kənddəki təsərrüfatda ixtisası üzrə işləməyə başlayır. İşgüzarlığını nəzərə alıb daha yüksək vəzifəyə irəli çəkirlər. Baş mühasib , sovxoz direktoru, kənd icra nümayəndəsi kimi vəzifələrdə çalışır.Səmimiyyətinə görə elə gənc yaşlarından "el ağsaqqalı" kimi tanınır. Hamıya qayğı ilə yanaşır. O, dövlətimizin hər sahədə uğur qazanmasında fəal iştirak edirdi.

Abdulhəsən Ağayev 2012-ci ilin oktyabrında Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr veteranları Şurasının Qobustan rayon Təşkilatının sədri seçilmişdir.

O, həmişə bu sahədə olan veteranlarla daima sıx əlaqə saxlayır və onların problemlərinin aradan qaldırılmasına çalışırdı. Gənclərin Həqiqi hərbi xidmətə yola salınma mərasimlərində fəal iştirak edirdi.

Abdulhəsən Ağayev həm də YAP Qobustan təşkilatının Poladlı kənd üzrə sədri idi. Onun səmimiyyətinə güvənən gənclər həvəslə bu partiyanın sıralarına qəbul olunurdular. Məhz öz işgüzarlığına görə Qobustan rayon İcra Başçısının və YAP Qobustan rayon təşkilatının "Fəxri fərman" larına layiq görülmüşdür. Veteran hərəkatındakı fəal iştirakına görə "30 il" yubiley medalı ilə təltif olunmuşdur. Ən sevndirici hal odur ki, o, Azərbaycan Respublikasının prezidenti İlham Əliyev cənablarının 27 may 2019-cu il tarixli sərəncamına əsasən "Azərbaycan Xalq Cumhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalına layiq görülmüşdür.

Son dövrdə ermənilərin bizə qarşı apardığı ədalətsiz müharibədə Abdulhəsən kişinin nəvələri də döyüşlərdə fəal iştirak edirdi.

Bu ilin oktyabr ayında AZƏRTAC-ın bölgə müxbirinə müsahibə verən Abdulhəsən Ağayev söyləmişdir; Möhtərəm Prezidentimizin dediyi kimi "biz öz torpağımızda döyüşürük, başqasının torpağında a yox" . Özüm başda olmaqla beş oğlum da döyüşə getməyə hazırıq. Əminəm ki, Ali Baş Komandanımızın Şücaəti sayəsində ordumuzun şanlı qələbəsinin Şahidi olacağıq".



Həqiqətən də Abdulhəsən Ağayev qələbəmizin şahidi oldu, lakin amansız ölüm onu 21 noyabr 2020-ci ildə aramızdan apardı. Hamı yaxşı bilir ki, bu insan həmişə elinə, obasına , vətənə çox bağlı idi. Mərhum şairimiz Səməd Vurğunun təbirincə desək:

***Ölüm sevinməsin qoy! - Ömrünü vermir bada***
***El qədrini canından daha əziz bilənlər.***
***Şirin bir xatirətək qalacaqdır dünyada,***
***Sevərək yaşıyanlar, sevilərək ölənlər..***

Onun əziz xatirəsi həmişə qəlbimizdə əbədi yaşayacaqdır. Allah rəhmət eləsin

***Məhəmməd Bayramov***

# Ərəbqədimin Vətənə adanmış igidləri

***Torpaqlara Vətən olmaq, bayraqlara bayraq olmaq haqqı verən Vətənə adanmış igidlərin şəhadəti, qılıncını qurşayanda kəfənini geyən qəhrəmanların qanıdır. Məhz belə igidlərin qanı və canı bahasına 44 günlük Vətən müharibəsində30 illik bir həsrətə son qoyuldu. Şanlı ordumuz bir "Dəmir yumruğa" dönüşüb düşmənin başına elə bir zərbə vurdu ki, çətin bir də özünə gələ.***

27 sentyabr 2020- ci il tarixdə erməni təxribatına qarşı əks-hücum əməliyyatının başlaanması üçün Ali Baş komandan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin verdiyi əmr bütün ölkədə olduğu kimi Qobustan rayonunun Ərəbqədim kəndində də böyük ruh yüksəkliyi və coşqu ilə qarşılandı. O günlər Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları və türk qardaşlarımız tarixdə heç vaxt olmadığı qədər birlik nümayiş etdirdilər. Bu, bütöv bir xalqın monolit birliyinin, dövlət-xalq birliyinin, xalqın öz dövlətinə , öz dövlət başçısına sonsuz güvəninin, sarsılmaz inamının ifadəsi idi.

Bəli məhz elan olunmamış bir səfərbərlik! Könlü Vətən eşqi ilə coşan ,düşmənin başını əzməyə səbirsizlənən igidlər rəsmi səfərbərliyin elan olunmasını gözləmədən Hərbi Komissarlıqların önünə axışdılar, könüllü olaraq cəbhəyə getmək istəklərini bildirdilər. Çox qürurverici,möhtəşəm anlar idi. Bu anları daha da möhtəşəm edən isə gənclərin müharibəyə yollanarkən dediyi sözlər idi.

Qobustan rayon Hərbi komissarlığının önündə toplanmış izdihamda Ərəbqədimin ilk könüllülərinindən olan Pərviz Süleymanovun söylədiyi sözlər gözləri yaşartdı, qəlbləri riqqətə gətirdi. Pərviz özü ilə gətirdiyi şanlı Azərbaycan bayrağının dövrəsində dolanıb"Ya bu bayrağa bükülüb gələcəyəm, ya bu bayrağı Şuşaya sancacağam"- demişdi.O, bu verdiyi sözə əməl etdi. Özü ilə canı kimi gəzdirdiyi gözəlim bayrağımızı Şuşada dalğalandırdı . Amma onunla eyni gündə döyüşə gedən qardaşı Rəis Süleymanovun döyüş yolu isə Füzuli uğrunda gedən döyüşdə sona yetdi. Minalanmış ərazidən keçərkən Rəis Sülüymanov minaya düşdü və sol ayağını itirdi. Onda qardaşı Pərviz də yanında idi . O,döyüş yoldaşlarının köməkliyi ilə yaralı qardaşını təxminən 200 metr arxaya aparıb təxliyə qrupuna təhvil verərək yenidən qızmış pələng kimi döyüşə atılmışdı.

Müharibənin 10cu günü.Qobustan rayon Ərəbqədim nümüyəndəliyinin tabeçiliyində olan Nardərən kəndinə ilk şəhid xəbəri gəldi. Rayon ictimaiyyəti, İH başçısı A.Məmmədov, digər vəzifəli şəxslər dəfndə iştirak edirdi . Dəfndə ən təsirli maqam isə şəhid Baxışov Cahangirin atası Əmrah kişinin dediyi sözlər idi. Ata şəhid oğlunun dəfnindəki çıxışını cəmi iki kəlmə söz ilə bitirdi:"Vətən sağ olsun!" Amma bu iki kəlməni deyərkən atanın gözlərindən bir dastan oxumaq olardı . Cahangir həqiqi hərbi xidmətdə idi. Oktyabrın 1-də təxris olunacaqdı. Füzuli istiqamətində qızğın döyüş gedirdi.Erməni diversiya qrupu qəflətən Cahangirin olduğu bölüyə hücum edir. Komandirinin şəhid olduğunu görən Cahangir düşmənin üzərinə atılaraq dörd erməninin məhv edir. Amma özü də başından aldığı güllə yarasından şəhid olur. Valideyinləri əsgər qarşılayacaq, oğul toyu edəcək, ocğına gəlin gətirəcəkdi.Əmrah kişi isə bütün bu arzularını da oğlunun uğruna canını fəda etdiyi Vətənə qurban verdi. -"Vətən sağ olsun" dedi. Oğlunu anamız torpağa tapşıran Validə ana döyüş yoldaşlarına "Qardaşınızın qanını düşməndən alarsız" dediyində onların cavabı ilginc oldu: "Ana Cahangir özü öz qanını aldı. O, dörd ermənini cəhənnəmə göndərdi, özü isə cənnəti qazandı."

Sonra bir-birinin ardınca yaralı xəbərləri gəlməyə başladı. Müddətdən artıq hərbi qulluqçu, kəşfiyyatçı gizir Bəhrəm Fazil oğlu Rəcəbov döyüş tapşırığını yerinə yetirərkən başından ağır yaralanmışdı. Bəhrəm xidmət müddətində dəfələrlə komandanlığın fəxri fərmanlarını, müxtəlif diplomlar almış, şücaətlə döyüşmüş, dəfələrlə yaralı əsgərlərini döyüş meydanından çıxarmışdı. Daha bir kəşfiyyatçı əsgərimiz könüllü Rəcəbov Ramil Bəyalı oğlu növbəti tapşırıqdan qayıdarkən düşmənin atdığı idarə olunan raket mərmisindən ağır qəlpə yaraları almışdı.Hər iki ayağından, sinəsindən, başından ağır yaralanan Ramili döyüş yoldaşları son anda xəstəxanaya çatdıra bilmişdilər. Qardaşı Rəcəbov Zaminin müddətdən artıq hərbi qulluqçu kimi xidmətdə olmasına baxmayaraq öz istəyi ilə döyüşlərə qatılan Ramil Rəcəbovun müalicəsi hələ də davam edir.

Ərəbqədimin daha bir igid övladı mayor Mahmudov Xoşbəxt Mahmud oğlu döyüşlərin birində yaralansa da mövqeyindən çəkilmir, döyüşməyə, öz əsgərləri ilə düşmənin üzərinə getməyə davam edir, əsgərlərimizin öz mövqelərini möhkəmləndirmsinə və düşmənə sarsıdıcı zərbələr endirməsinə yardımçı olur.

Əsgər Əhlimanlı Orxan Vüqar oğlu,əsgər Rəcəbov İsmayıl Xanlar oğlu döyüşlərdə müxtəlif dərəcəli yaralar alır.Bir müddət Hospitalda müalicə alaraq yenidən ön cəbhəyə qayıdırlar.

Eyvazov Eldəniz Təvəkkül oğlu. Şuşanın alınmasında şücaət göstərərəy əlbəyaxa döyüşdə bir neç düşmən əsgərini məhv edir.

Ərəbqədim rayonun o qədər də böyük olmayan kəndlərindəndir. Lakin Vətən müharibəsində Ərəbqədimli gənclərin önəmli bir hissi iştirak etdi:

1. Mahmudov Xoşbəxt Mahmud oğlu,mayor
2. Məmmədov Rövşən Üzeyir oğlu, leytenant
3. Rəcəbli Bəhrəm Fazil oğlu,müddətdən artıq hərbi qulluqçu, qazi gizir.
4. Baxışov Cahangir Əmrah oğlu, əsgər, şəhid ("Vətən uğrunda" medalı ilə təltif olunmuşdur, ölümündən sonra)

5.Süleymanov Rais Əzizxan oğlu, könüllü əsgər, qazi.

6.Süleymanov Pərviz Əzizxan oğlu, könüllü əsgər

7.Rəcəbli Ramil Bəyalı oğlu, könüllü əsgər, qazi.

8.Osmanov İlkin İsgəndər oğlu, könüllü əsgər

9.Rəcəbli Sahil Azad oğlu, könüllü əsgər

10.Imanquluyev Qismət Həsrət oğlu, könüllü əsgər

11.Ağalıyev Qismət Xanmurad oğlu, könüllü əsgər

12.Sahibov İdris Eynulla oğlu, könüllü çavuş

13.Əhlimanlı Zəmanət Əmrağa oğlu, könüllü əsgər

14.Rəcəbov Zamin Bəyalı oğlu,müddətdən artıq hərbi qulluqçu

15.Rəcəbov İsmayıl Xanlar oğlu, könüllü əsgər(Cəsur döyüşçü medalı ilə təltif olunmuşdur)

16.Rəcəbli Ramin Babaverdi oğlu, könüllü əsgər, (Cəsur döyüşçü medalı ilə təltif olunmuşdur)

17.Xəlilov Turan Əhmədşah oğlu, könüllü əsgər

18.Baloğlanov Səfərxan Balamurad oğlu, könüllü əsgər

19.Paşayev Həsrət Məmməd oğlu, könüllü əsgər

20.Baxışzadə Pirverdi Tofiq oğlu, könüllü əsgər

21.Sahibov Samir Baba oğlu, könüllü əsgər

22.Əhmədov Tehran Akif oğlu, könüllü əsgər

23.Məmmədov Sahil Şaiq oğlu, əsgər (Cəsur döyüşçü medalı ilə təltif olunmuşdur)

24.Eyvazov Eldəniz Təvəkkül oğlu, əsgər

25.Məmmədov Xəyal Asif oğlu, əsgər

26.Məmmədov Səxavət İlqar oğlu, əsgər

27. Aslanov Musa Saleh oğlu, əsgər

28. Əhlimanlı Orxan Vüqar oğlu(Cəsur döyüşçü medalı ilə təltif olunmuşdur)

29.İlyasov Röyal Cəlal oğlu, əsgər

30. Qəhrəmanov İmam Rasim oğlu, əsgər

31. Vəliyev Fariz Oqtay oğlu, əsgər

32. Məmmədov Alqayıd Şirin oğlu, əsgər

33. Sultanov Bəhruz İkram oğlu, hərbi qulluqçu.(Veteran tankçılar birliyinin Fəxri fərmanı ilə təltif olunmuşdur)

34.Baxışov Elvin Mahir oğlu əsgər

Bu gənclərin hər biri könüllü olaraq cəbhəyə yazılan gündən əsl qəhrəmandırlar.Bir ucunda ölümün olduğunu bilərəkdən bir yola çıxmaq, özü də sevə-sevə çıxmaq, elə qəhrəmanlığın özü deməkdir. Onlar bu yola çıxarkən, sağ qalacaqlarını, şəhid olacaqlarını, qolunu, qıçını itirəcəklərini bilmirdiər. Onlar bir şeyi bilirdilər: bu Vətənin mənfur işğaldan azad olunması üçün son döyüşə atılmaq lazımdır!Və bu inamla da onlar bu döyüşə atıldılar.Qorxmadan, çəkinmədən, sevə-sevə getdilər bu döyüşə. Çünki bilirdilər ki, onların arxasında bütöv bir xalq, güclü bir dövlət,cəsarətli bir prezident ,"Qarabağ Azərbaycandır və nida!" deyərək Qarabağın xilas əmrini verən qətiyyətli bir Ali Baş Komandan və daima Azərbaycanın yanında olan böyük Türk dünyası, qəlblərində isə sonsuz Vətən sevgisi, torpaqları düşməndən bir yolluq azad etmək əzmi var .Və bu sevgi ilə, bu əzm ilə biz qalib gəldik!

Bu gənclərin hər biri birinci Qarabağ savaşında şəhid olmuş qəhrəman həmkəndliləri Mübariz Sahibovun adını daşıyan Ərəbqədim kənd tam orta məktəbin məzunlarıdır. Hər il aprel ayının 16-da M. Sahibovun doğum gününə həsr olunan tədbirlərdə bu gənclərin hər biri hələ şagird ikən şəhid həmkəndlilərinin qanını almaq, onun uğrunda şəhid olduğu torpaqlarımızı düşmən tapdağından azad etmək üçün and içmişdilər. Ali Baş Komandanın əks-hücum əmri onlar üçün sanki bir fürsət oldu. Və onlar içdikləri anda sadiq qalaraq Torpaqların işğaldan azad olunması uğrunda Vətən müharibəsinə qatıldılar.

Məhz belə vətənpərvər gənc nəslin yetişməsində az da olsa rolu olan bir müəllim kimi öz adıma və həmkarlarım adına çox qürurluyam. Bu vətən sizinlə fəxr edir, əziz Vətən övladları! Qarabağ Azərbaycandır! Nə qədər ki, bu Vətənin sizin kimi Vətənə adanmış igid övladları var, Azərbaycan olaraq qalacaq!

***Şəhid Cahangir Baxışovun əziz xatirəsinə***

Qazılı məzara bax,
Şəhidini gözləyir!
Bir el ayaq üstədir
Igidini gözləyir!

Üçrəngli tabut gəlir,
Çiynində ərənlərin.
Bayrağına and içib
Döyüşə girənlərin.

Son mənzilin mübarək,
Cahangirim, yat, uyu!
Məkanın cənnət olsun,
Şəhidim, rahat uyu!

Atan məzar başında
Tarixi nitq söylədi,
Iki tarixi kəlmə:
-Vətən sağ olsun! - dedi .

Fəqət, bu iki kəlmə
Uzundu dastan qədər.
Bu iki kəlmə əziz,
Canımızda can qədər.

Bu iki kəlmə üçün
Sən can verdin , şəhidim!
Bir ömrün dastanını
Qurban verdin, şəhidim!

Ananın oxşadığı
Boyunu qurban verdin,
Sənə toy edəcəkdi,
Toyunu qurban verdin

Kişilər ağlamazmış,
Ağlamadı atan da.
Sıxdı göz yaşlarını
Yastığına yatanda

(Yox, kişilər ağlar da,
Ağlamağı sezilməz.
Sadəcə, göz yaşları
Yanağına süzülməz.)

Indi tək onun deyil,
Sən bir Vətən oğlusan!
Ürəklərə səpilib
Orda bitən oğlusan!

Intiqamın alındı,
Cahangirim, yat, uyu!
Məkanın cənnət olsun,
Şəhidim, rahat uyu!

***21.12. 2020.***

***(Davamı səh.8-də)***

# "Davam" gənclər hərəkatı ağacəkmə aksiyası keçirib

***24 dekabr tarixində "Davam" Gənclər Hərəkatı "Biz birlikdə güclüyük" devizi altında Vətən uğrunda canından keçən 2802 şəhidimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədi ilə ümumrespublika ağacəkmə aksiyasına start verib.***

Davamçı könüllülərin iştirak etdiyi aksiya Qaradağ, Qobustan, Şəmkir və Ucar Gənclər Evlərinin dəstəyi ilə 4 rayon üzrə 10 fərqli məntəqədə baş tutub. Hər məntəqədə 59 ağac olmaqla ümumilikdə ölkə ərazisində 590 ağac əkilib. 3 gün ərzində davam edəcək aksiya çərçivəsində ümumilikdə 2802 ağac əkilməsi nəzərdə tutulub.

İlk olaraq ağacəkmə aksiyası Qobustan rayonu ərazisində start götürüb. Aksiyada Qobustan rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov, Qobustan Gənclər evinin direktoru Anar İrzaquliyev, "Davam" gənclər hərəkatının direktoru Nihad Allahyarlı, hərəkatın idarə heyətinin üzvü, olimpiya çempionu Rəsul Çunayev və Qobustan gənclər evinin könüllüləri iştirak etmişdir.





Qobustan rayonu ərazisində ümumi olaraq 59 ədəd ağac əkildi. Aksiya ilə bağlı açıqlama verən Qobustan Gənclər evinin direktoru Anar İrzaquliyev bildirdi ki, aksiyanın keçirilməsində əsas məqsəd şəhidlərimizin əziz xatirəsini yad etmək- dir. Həmçinin ağacların əkilməsi ilə ekologiyamıza və gələcəyimizə böyük töhvə vermiş oluruq.

***Mirzə Mirzaliyev***
***Bakı Avrasiya Universitetinin***
***3-cü kurs tələbəsi***

# Ərəbqədimin Vətənə adanmış igidləri

*(Əvvəli səh.7-də)*

## Gedirəm düşmənə qan uddurmağa!

Ana, halal eylə, xeyir-dua ver,
Azad etməliyik Can Qarabağı!
Qoy şahidim olsun bu göylər, bu yer,
Şuşaya sancacam ya bu bayrağı,
Bükülüb gələcəm ya bu bayrağa,
Gedirəm düşmənə qan uddurmağa!

Vətənin torpağı dardadı orda,
Tərlanın yuvası sardadı orda!
Indi Azərbaycan ordadı, orda,
Vətən oğulları qalxıb ayağa,
Gedirəm düşmənə qan uddurmağa!

Vətən məsələsi həssas məsələm,
Orda həll olunur əsas məsələm!
Hələ qüvvədədir qisas məsələm,
Mənim torpağımda nə gəzir dığa,
Gedirəm düşmənə qan uddurmağa!

Mübarizlər ruhun darda qoymaram,
Poladımın qanın yerdə qoymaram,
Bir daha düşməni yurda qoymaram!
Dəyməsin ayağı ana torpağa,
Gedirəm düşmənə qan uddurmağa!

Vətən üçün ölmək şərəfdir, şandır,
"!"sını qoyan baş komandandır!
Cənnətim Qarabağ Azərbaycandır!
Duyduqca ürəyim dönür bir dağa,
Gedirəm düşmənə qan uddurmağa!

## Mənim şanlı ordum, müzəffər ordum!

Düşmənin başına göydən od ələ,
Daim haqq yolunda səfərbər ordum!
Zəfər günlərimiz öndədir hələ,
Amalı ay kimi münəvvər ordum!
Mənim şanlı ordum, müzəffər ordum!

Vətənçün döyüşmək ulu amaldır,
Bu səfər düşmənə son dəfə saldır!
Xankəndində qaldır, Şuşada qaldır,
Üçrəngli bayrağı bu səfər, ordum,
Mənim şanlı ordum, müzəffər ordum!

Eşq olsun qəhrəman əsgərlərinə,
Can qurban demişəm hər nəfərinə.
Sancdın bayrağımı Xudafərinə,
Yaraşır şanına bu zəfər, ordum,
Mənim şanlı ordum, müzəffər ordum!

Şığı şimşək kimi, Üçrəngli qartal,
Qarğa sürüsünü pərən-pərən sal!
Əsir Xocalının qisasını al,
Yayılsın aləmə bu xəbər, ordum,
Mənim şanlı ordum, müzəffər ordum!

Hər dağ başında bir tonqal yandıraq,
Üçrəngli bayrağı dalğalandıraq!
Gəl, Xanın səsini havalandıraq
Gözəl Qarabağda hər səhər, ordum,
Mənim şanlı ordum, müzəffər ordum!

Füzuli, Kəlbəcər, Laçın, Qubadlı
Bir günə qovuşsun, toylu-büsatlı!
Ey zəfər soraqlı, ey qalib adlı
Ali komandanı bəxtəvər ordum,
Mənim şanlı ordum, müzəffər ordum!

## Iki min yeddi yüz səksən üç şəhid

Qanını Şəhidlər qanına qatdı,
Iki min yeddi yüz səksən üç şəhid!
Yeni tarix yazdı, tarix yaratdı.
Iki min yeddi yüz səksən üç şəhid!

Yeni döyüş ruhu gətirdi hərbə
Endirdi düşmənə ölümcül zərbə
Iki min yeddi yüz səksən üç zirvə!
Iki min yeddi yüz səksən üç şəhid!

Yürüdü düşməndən öc ala-ala
Biryolluq son qoydu mənfur işğala.
Iki min yeddi yüz səksən üç qala -
Iki min yeddi yüz səksən üç şəhid!

Iki min yeddi yüz səksən üç ana
Könlündə yas tutur igid oğluna.
Vətənin uğrunda qıydılar cana
Iki min yeddi yüz səksən üç şəhid!

Hər biri sal qaya, hərəsi bir dağ,
Tabutu üstündə ay-ulduzu ağ
Iki min yeddi yüz səksən üç bayraq -
Iki min yeddi yüz səksən üç şəhid!

Vətənə sədaqət andını içdi,
Şərəfli şəhadət yolunu seçdi.
Qəlbləri fəth etdi, qəlblərə köçdü
Iki min yeddi yüz səksən üç şəhid!

On milyon ürəyə təsəlli, təpər
Keçilməz bir sərhəd, basılmaz səngər!
Hərəsi bir ərən, hərəsi bir ər
Iki min yeddi yüz səksən üç şəhid!

Neçə yarım qalmış həyat deməkdi,
Ləğv olan toy demək, büsat deməkdi,
Mübariz deməkdi, Polad deməkdi
Iki min yeddi yüz səksən üç şəhid!

Iki min yeddi yüz səksən üç qurban!
Iki min yeddi yüz səksən üç karvan!
Iki min yeddi yüz səksən üç dastan! -
Iki min yeddi yüz səksən üç şəhid!
Iki min yeddi yüz səksən üç igid!

***04.12.2020.***
***Füzuli Soltan,***
***AYB və AYB Şamaxı bölməsinin üzvü,***
***şair publisist.***

Şəhidlər tabut-tabut
Şəhidlər məzar-məzar,
Şəhidlər bayraq-bayraq
Vətən göylərin bəzər.

Şəhidlər ruh-ruh gəzib
Fələk-fələk süzərlər,
Könül-könül dolaşıb,
Ürək-ürək gəzərlər.

Şəhidlər yuxu-yuxu,
Ev-ev müsafir olar.
Şəhidlər xəyal-xəyal
Xatirələrə dolar.

Şəhiglər xəbər-xəbər,
Oba-oba yayılar.
Həzin-həzin ağlanıb
Ağı-ağı duyular.

Şəhidlər sıra-sıra
Zirvə-zirvə ucalar.
Zirvələr şərəf-şərəf.
Şəhid-şəhid ad alar

Şəhidlər məqam-məqam
Cənnətdə sakin olar.

# *Təşəkkür məktubu*

Hörmətli oxucu bu qısa məqalədə gördüklərimi və eşitdiklərimi sizinlə bölüşmək istəyirəm . Mən- Əhədov Niyazi Yunus oğlu Sündü kəndində yaşayıram 78 yaşım var . Oktyabr ayının əvvəlində xəstələndim. Xəstəliyimdə mənə ən çox əziyyət verən öskürək oldu. Buna qarşı bildiyimiz qədər "Xalq təbabətindən" istifadə etdim. Gündən- günə vəziyyətim ağırlaşdı, dözə bilmədim nə isə Qobustan rayon Mərkəzi Xəstəxanasına gəldim. Həkimlər məni müayinə etdilər. Koronavirusa görə məndən analiz götürdülər. Bir gün keçəndən sonra analizin cavabı gəldi nəticə "pozitiv "oldu . Oktyabrın 28-29-da rayon müalicə mərkəzinə qəbul olundum. Əsas eşitdiklərim və gördüklərim budan sonra başladı. Mən ibadət əhliyəm , bu işi yerinə yetirmək üçün mənə gözəl şərait yaratdılar. Müalicəm başlandı. Mən deyərdim ki, dünyada belə bir müalicə ola bilməz. Bu kollektiv öz işlərinə çox məsuliyyətlə yanaşır. Mütəmadi olaraq bütün tədbirləri yerinə yetirirlər. Bu korpusda xadimələrdən tutmuş , tibb bacıları və həkimlərnə qədər qayğıkeş , nə qədər mərifət sahibidirlər. Bunları bir-birindən yalnız xarici görnüşləri ilə ayırd etmək olar. Daxilən, xasiyyətcə , əməlcə bir adamlardır. Yemək-içmək sahəsində müalicə ilə sanki yarışırdılar. Ehtiyacım olan ərzağı bir an içərisində mənə çatdırırdılar. Mən Azərbaycanın keçmiş SSRİ-nin tərkibində olan zaman bir çox xarici ölkələrdə turist səfərlərində, sanatoriyalarda olmuşam. Mən heç bir ölkədə bu xəstəxanada olan məsuliyyət, mərifət-qanacaq, qabiliyyət , təmizlik və yüksək peşəkarlıq görməmişəm. Ona görə özümə borc bilirəm ki, minnətdarlığımı bildirəm. Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevə, Qobustan rayon İcra Hakimiyyətinin Başçısı Adil Məmmədov cənablarına, Qobustan RMX-nın baş həkimi Emin Hüseynə və bütün səhiyyə sahəsində çalışanlara minnətdarlığımı və təşəkkürümü bildirirəm. Arzu edirəm ölkəmizdəki bütün kollektivlər bu müalicə ocağını bir örnək kimi qəbul etsinlər.

***Sündü kənd sakini***
***Əhədov Niyazi***

*Təsisçi:* Qobustan Rayon İcra Hakimiyyəti
www.qobustan-ih.gov.az

*Baş redaktor:*
**Ruslan Şahbazov**
**Tel.: (050) 524 28 10**
**(070) 224 28 10**

*Ünvan:*
Qobustan şəhəri, Heydər Əliyev prospekti. Qobustan Rayon İcra Hakimiyyətinin binası.
Qəzet ayda iki dəfə çıxır

Qəzet "Son dəqiqə" mətbəəsində çap olunmuşdur
Tiraj: 2000
E_mail:qobustanqazeti@mail.ru